**Ümumdünya Heyvan Sağlamlığı Təşkilatının (WOAH) 2022-ci ildəki müvafiq rəsmi məlumatlarına əsasən, Azərbaycan Respublikası ərazisinin başqa ölkələrdən keçə biləcək yoluxucu heyvan xəstəliklərindən qorunması ilə bağlı görülmüş tədbirlər**

## İyul ayı üzrə

| Xəstəliyin adı | Ölkənin adı | Qadağan qoyulmuş inzibati ərazi vahidi | Qadağan olunmuş heyvan və heyvan mənşəli məhsulların növü | Xəstəliyin qeydə alınması ilə bağlı WOAH tərəfindən verilmiş məlumatın tarixi |
|---|---|---|---|---|
| Nyukasl | İspaniya | Andalusiya (Andalucía) muxtar icmasına | WOAH-nin “Quruda yaşayan heyvanların sağlamlıq Məcəlləsi”nə əsasən, zonalaşma prinsipi nəzərə alınmaqla, diri quş və inkubasiya yumurtalarının, quş əti və hər növ quşçuluq məhsulları (WOAH-nin “Quruda yaşayan heyvanların sağlamlıq Məcəlləs”inin 10-9-20-ci və 10-9-21-ci maddələrinə uyğun olaraq, Nyukasl viruslarının məhv edilməsini təmin edən termik emala məruz qalan mallar istisna olmaqla), quş yemləri və quş üçün yem əlavələrinin (bitki mənşəli, kimyəvi və mikrobioloji sintez yolu ilə alınmış yemlər və yem əlavələri istisna olmaqla), quşların saxlanması, kəsilməsi və emalı üçün istifadə olunmuş avadanlıqların idxalına, habelə qeyd olunan ölkənin həmin inzibati ərazi vahidindən Azərbaycan Respublikasının ərazisindən diri quşların tranzitinə müvəqqəti məhdudiyyət qoyulmuşdur | 05.07.22 |

| | | | | |
|---|---|---|---|---|
| Dabaq | Əlcəzair | Umm-El-Buaqi (Oum-El-Bouaghi), Tipaza (Tipaza), Medea (Médéa), Tebessa (Tébessa) və Tizi-Uzu (Tizi-Ouzou) əyalətlərinə | Diri heyvanların, heyvan mənşəli məhsulların və xammalın idxalına, həmçinin tranzit daşınmasına müvəqqəti məhdudiyyət qoyulmuşdur | 28.07.22 |
| Xırdabuynuzlu heyvanların taun xəstəliyi | Əlcəzair | Medea (Médéa), El-Bayad (El-Bayadh), Tebessa (Tébessa) və Laquat (Laghouat) əyalətlərin | Diri xırdabuynuzlu heyvanların, onlara aid ət-sümük unu, süd və süd məhsulları, trofeylər, dəri, yun, tük, genetik materialların idxalına müvəqqəti məhdudiyyət qoyulmuşdur | 28.07.22 |